# CƏLİL MƏMMƏDQULUZADƏNİN PUBLİSİSTİKASI AZƏRBAYCANÇILIQ KONTEKSTİNDƏ

**Allahverdi Məmmədli**

*BDU, Multimedia və elektron kommunikasiya kafedrasının profesoru*

*"Azərbaycanda və onun hüdudlarından kənarda geniş yayılaraq milli oyanışa, yeniləşmə hərəkatına yol açan və azadlıq ideyalarının inkişafına qüvvətli təsir göstərən "Molla Nəsrəddin" jurnalı məhz Mirzə Cəlil dühasının məhsuludur".*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Xülasə**

*Məqalədə Azərbaycanın görkəmli adibi Cəlil Məmmədquluzadənin publisistikası elmi tədqiqata cəlb edilmişdir. Cəlil Məmmədquluzadə publisistikasının ideya-bədii istiqamətləri araşdırılmışdır. Xüsusilə, Azərbaycan satirik publisistikanın banisi Cəlil Məmmədquluzadənin bütöv Azərbaycan mövqeyi, məmləkətinə vətəndaş məhəbbəti, onu sivil görmək arzusu azərbaycançılıq kontekstində təhlil olunmuşdur.*

***Açar sözlər:** Cəlil Məmmədquluzadə, "Molla Nəsrəddin", publisistika, azərbaycançılıq*

"Molla Nəsrəddin" satirik publisistika məktəbi bəzi istisnalar nəzərə alınmazsa, demək olar ki, öyrənilməyib. Cəlil Məmmədquluzadənin bu sahədəki fəaliyyəti mollanəsrəddinçiliyin özəyi və təməl daşıdır. O, hələ "Şərqi-Rus" qəzeti redaksiyasında işləkən, həmin qəzetdə dərc etdirdiyi məqalələri ilə mollanəsrəddinçiliyin əsasını qoymuşdur. Ancaq Mirzəcəlilçi mollanəsrəddinçilik təlim olaraq 1906-cı il aprelin 7-dən başlayıb. Cəlil Məmmədquluzadənin bilavasitə rəhbərliyi ilə keçirilən bu möhtəşəm yaradıcılıq təlimləri 1906-1917-ci illərdə Tiflisdə, 1921-ci ildə Təbrizdə, 1922-1931-ci illərdə Bakıda baş tutub. Qeyd edək ki, mollanəsrəddinçi təlimlərlə bağlı materiallar "Molla Nəsrəddin" jurnalının Tiflisdə 370, Təbrizdə 8, Bakıda 398 - cəmi 776 nömrəsində öz əksini tapmışdır.

İndi mollanəsrəddinçilik xüsusi bir təlim kimi öyrənilir. Bu təlim kitabında tənqidi-realist ədəbiyyatın poetikasından, ideya-bədii istiqamətlərindən

bəhs edilir. Mollanəsrəddinçilik azərbaycançılıq ideyasını reallaşdırmaq üçün təlim kitabıdır. Bu təlim kitabının baş müəllifi Cəlil Məmmədquluzadədir. Azərbaycanda tənqidi-realist ədəbiyyatın və mətbuatın inkişaf istiqamətlərini və xüsusiyyətlərini müəyyən edən ideya-estetik prinsiplər mollanəsrəddinçilikdə öz əksini tapmışdır.

Böyük demokrat ədib Cəlil Məmmədquluzadə (1869-1932) 37 yaşında ikən "Molla Nəsrəddin"i yaratdı, jurnal qapananda isə o, 62 yaşın içində idi. Həm bu 25 ilin publisistika çərçivəsində, həm də ondan əvvəlki ədəbi yaradıcılığı ilə Azərbaycan ədəbiyyatı tarixində silinməz cığırlar açdı: satirik ədəbiyyatın, satirik publisistikanın, karikatura sənətinin əsasını qoydu, ilk rəngli şəkilli jurnal yaratdı, kiçik hekayənin böyük ustadı oldu, Azərbaycan ədəbiyyatında "Molla Nəsrəddin" ədəbi məktəbinin, tənqidi realizmin banisi kimi şöhrət qazandı, bir sözlə, milli satirik ədəbiyyatın mollanəsrəddinçilik ədəbi təlimini formalaşdırdı, bununla da azərbaycançılıq ideyasının ədəbiyyatda və publisistikada, ictimai fikirdə əsas yaradıcılarından biri kimi milli qan yaddaşımızda əbədilik qazandı.

"Molla Nəsrəddin" jurnalında Azərbaycan nəsrinin, şeirinin, publisistikasının, karikaturasının əbədiyaşar nümunələri öz əksini tapmışdır. Bu əsərlər öz dövründə müasirləri üçün ədəbi məktəb rolunu oynamış, indi də oynayır və gələcəkdə də bu missiyanı yerinə yetirəcək.

Azərbaycan ədəbi-ictimai fikrinin görkəmli nümayəndəsi Cəlil Məmmədquluzadənin yüksək təşkilatçılığı ilə bir araya gələn əməl dostları - Mirzə Ələkbər Sabir, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Ömər Faiq Nemanzadə, Əli Nəzmi, Əliqulu Qəmküsar, Mirzə Əli Möcüz Şəbustəri, Məmmədəli Nasir və onlarla digər görkəmli Azərbaycan ədibi mollanəsrəddinçiliyin fədakar nümayəndələri olmuşlar. Mollanəsrəddinçilik həmin böyük şəxsiyyətlərin məsləkinə, həyat amalına çevrilmişdir.

Mollanəsrəddinçilik təlimi "Molla Nəsrəddin" ədəbi məktəbinin proqramıdır.

"Molla Nəsrəddin" ədəbi məktəbinin bütöv yaradıcılıq proqramı bu möhtəşəm təlim kitabında dolğun əksini tapmışdır. Proqramın əsasını isə milli müstəqillik və azadlıq uğrunda mübarizə təşkil edir. "Molla Nəsrəddin" ədəbi məktəbinin nümayəndələri başda Cəlil Məmmədquluzadə olmaqla milli istiqlala bir ordudan ziyadə xidmət göstərmişlər. Bu mənada "Molla Nəsrəddin" jurnalı Azərbaycan xalqının ən böyük istiqlal kitabıdır. Yaxud milli istiqlal uğrunda mübarizə dövrün digər axınları ilə müqayisədə daha çox mollanəsrəddinçilikdən keçir.

Mollanəsrəddinçilər ictimai satiranın, gülüşün gücündən maksimum yararlanmaq, bunun vasitəsilə də cəmiyyəti dəyişmək, inkişaf etdirmək istəyirdilər. Onlar həm də demokratik ideyaları-insan hüquq və azadlıqlarını ədəbiyyatda və publisistikada əks etdirmiş, ictimai fikrə aşılamaq missiyasını uğurla yerinə yetirmişlər.

Mollanəsrəddinçilik - mollanəsrəddinçilərin özünəməxsus yaradıcılığı və bu yaradıcılıqda əks olunan azərbaycançılıqdır. Mollanəsrəddinçiliyin ideya





əsasında azərbaycançılıq məsləki dayanır. Bunu mollanəsrəddinçiliyin strateji məqsədi də sübut edir. Mollanəsrəddinçiliyin məqsədi millətin özünüdərkinə, azadlığına, tərəqqisinə nail olmaqdır.

Xalqı milli istiqlala qovuşdurmaq mollanəsrəddinçilərin əsas məqsədi olmuşdur. Məhz bu səbəbdən xalqı müstəqillik və azadlıq uğrunda mübarizəyə hazırlamaq və sövq etmək mollanəsrəddinçilik təliminin ana xəttini təşkil edir. Bu ana xəttin reallaşdırılması üçün birinci millətin özünəqayıdış prosesini yönləndirmək lazım idi. Sonra onun özünüdərkinə yardımçı olmaq, milləti ayıltmaq və siyasi oyanışını təmin etmək lazım idi. Bütün bunları mollanəsrəddinçilər sistemli olaraq həyata keçirməyə, vahid məcraya salmağa nail oldular. Mollanəsrəddinçilik – xalqın milli-mənəvi özünüdərkinin, millətin siyasi oyanışı və ayıqlığının hərəkətverici qüvvəsidir.

Mollanəsrəddinçilər ictimai satiranın, gülüşün gücündən maksimum yararlanmaq, bunun vasitəsilə də cəmiyyəti dəyişmək, inkişaf etdirmək istəyirdilər. Onlar həm də demokratik ideyaları-insan hüquq və azadlıqlarını ədəbiyyatda və publisistikada əks etdirmiş, ictimai fikrə aşılamaq missiyasını uğurla yerinə yetirmişlər.

Mollanəsrəddinçilik - ədəbiyyatımıza novatorluq ənənələri bəxş etmişdir.

Cəlil Məmmədquluzadə mollanəsrəddinçilik təlimini yaratmaqla Azərbaycan ədəbiyyatı tarixinə islahatçı bir ədib kimi düşmüşdür.

Mollanəsrəddinçilik – yeni novator yazıçıların yaradıcılığı üçün əsaslı zəmin olan əbədi məktəbdir.

Mollanəsrəddinçiliyin fərqlənən cəhətlərindən biri də bədii əsərlə təsviri sənəti, hekayə və felyetonla karikaturanı birləşdirərək bir araya gətirməsidir. Mollanəsrəddinçilik həm də karikaturada özünü ifadə və təsdiq etmişdir.

Mollanəsrəddinçiliyin qabarıq təzahürü "Molla Nəsrəddin" ədəbi məktəbi nümayəndələrinin bədii yaradıcılıqlarının bütün sahələrində və publisistik əsərlərində aydın görünür.

Cəlil Məmmədquluzadə yaradıcılığında məmləkət və millət ideyalarının ifadəsi publisistikasında dolğun əks olunmuşdur. Azərbaycan məmləkəti ideyasına bir neçə mühüm bucaqdan yanaşmaq olar: 1. Azərbaycan məmləkətinin tarixi ərazi bütövlüyü; 2. Azərbaycan məmləkətinə vətəndaş məhəbbəti; 3. Azərbaycan məmləkətini sivil görmək arzusu.

Azərbaycan məmləkətinin tarixi ərazi bütövlüyü onun əsərlərində özünü açıq göstərir. Xüsusilə, publisistikasında. Publisist "Xoş təqrir" felyetonunda Araz çayının Azərbaycanı iki hissəyə ayırmasını nağılçının dili ilə belə nəql edir: Araz deyir: "Mən yaman olsaydım, İrana sərhəd olmaz idim!"(2, c. 2, 152). Bu kiçik nağıl parçasında Arazın bütöv məmləkət üstündə ayrılıq ağrısı öz ifadəsini tapmışdır.

Ədibin azərbaycançılıq ideyası, Azərbaycan məmləkətinin tarixi ərazisi və bütövlüyü haqqındakı fikirləri "Azərbaycan" məqaləsində daha qabarıqdır:

"... dilimin adı türk-Azərbaycan dilidir,... Vətənim də Azərbaycan vilayətidir.

-Haradır Azərbaycan?

-Azərbaycanın çox hissəsi İrandadır ki, mərkəzi ibarət olsun Təbriz şəhərindən; qalan hissələri də Gilandan tutmuş, qədim Rusiya hökumətilə Osmanlı hökuməti daxillərindədir ki, bizim Qafqazın böyük parçası ilə Osmanlı Kürdüstanından və Bayaziddən ibarət olsun"(3, c. 3, 4). Vətəndaş ədibin çağrışı belədir: "Vətən, vətən, vətən, Dil, dil, dil, Millət, millət, millət! Daxi bu dairələrdən kənar bəni-nöi bəşər üçün özgə nicat yolu yoxdur"(3, c. 3, 4).

Azərbaycan" məqaləsi ədəbiyyatşünaslıqda həm də "Azərbaycan məmləkəti coğrafiyasının vətəndaş ədib Cəlil Məmmədquluzdanin mahir qələmi ilə çəkilmiş nadir publisist xəritəsi "(4, c. 1, 25) kimi qiymətləndirilmişdir.

Ədib Azərbaycanın bütövlüyünün böyük carçısı idi. Bütövlük uğrunda mübarizədə millətə dostu, düşməni tanımağı məsləhət görür, mübarizə üsullarında fanatizmi rədd edirdi. "Tarix" adlı felyetonunda mübarizələr tarixinin ibrətamiz dərslərini xatırladaraq yazır: "İnsan üçün böyük dərslərin biri də tarixdir. Aç qabağına tarixin səhifələrini və əgər gördün ki, bir vaxt insanlar bir para işlərdə səhv eyləyiblər, - daxi sən həmin səhvi eyləmə" (2, c. 2, 292). Bu birbaşa və dəqiq tezisdən sonra publisist əsas mətləbə keçir. Bu mətləbdə vaxtı ilə İranda öz azadlığı uğrunda mübarizəyə girişmək fikrində olan həmvətənlərimizin bu mübarizədəki qeyri-real hərəkəti açıqlanır: "Tehranda balaca uşaqların düşmən qabağına quran götürüb-çıxmaqları gələcək üçün bir tarixdir. Gələcəkdə tarixin Tehran səhifəsini açanda oxuyacaqlar ki, tüfəngin və topun qabağına Tehranda balaca uşaqlar quran çıxartdılar və padşahın qoşunu tüfəng və top gülləsi ilə uşaqları da tikə-tikə elədi, quranın vərəqlərini də parça-parça eyləyib havaya uçurtdu. Bu bir tarixdir ki, bəni-növi bəşər üçün bir ibrət olacaq" (2, c. 2, 292).

Bundan sonra Cəlil Məmmədquluzadə əsl mətləbə keçir. Əsl mətləb isə Azərbaycandan həmişə torpaq iddiası ilə bəd əməllərə əl atan ermənilərə qarşı mübarizə ilə bağlıdır. Müəllif bu yerdə ən yaxın tarixdən misal gətirərək yazır: "Erməni-müsəlman davasında Şeytanbazar müsəlmanları qüranın ayələrini kağız üstə yazıb yapışdırmışdılar divarlara ki, evlərinə xətər toxunmasın; amma bu evlərin çoxusuna od düşəndə hər bir şeydən qabaq bu dualar alışıb yandılar; çünki kağız taxtadan və daşdan tez yanar" (2, c. 2, 292). Cəlil Məmmədquluzadə mübarizənin, millət və vətən davasının öz üsulları olduğunu xatırladır.

Uzun müddət Cəlil Məmmədquluzadənin erməni xislətini ifşa edən əsərləri barədə danışmağa yasaq qoyulduğundan, bəlkə də, elə təsəvvür yaranmışdır ki, guya, ədib yalnız xalqlar dostluğunun tərənnümçüsü olmuşdur. Cəlil Məmmədquluzadə erməniləri yaxşı tanıyırdı. Hətta bir dəfə əlinə silah alıb döyüşmək istəmişdi. Ermənilər Əsgəranda yolu kəsib Şuşanı mühasirəyə alanda Ağdama gəlmiş, şuşalıları aclıqdan qurtarmaq üçün hücumda iştirak etmək niyyətində olmuşdu. Bunu 1917-ci il sentyabrın 14-də Həmidə xanıma yazdığı məktubunda bildirmişdi: "Əzizim Həmidə! Yaxın günlərdə türk qoşunlarının Əsgərana hücumu gözlənilir. Onlara kömək üçün bu gün atlıların siyahısı tutulur. Mən gəlmişəm əlimdən gələnköməyi göstərim və qoşunlarla birgə hücumda iştirak eləyim. "(5, 44).





Ədib özünün "Müsəlmanlar silahlanır" felyetonunda Azərbaycan torpaqlarını ermənidən qorumağın, bu məmləkətin qeyrətini çəkməyin bir yolu olduğunu göstərirdi: Silahı əldə hazır saxlamaq! Birləşmək! Bir məqsədə xidmət etmək, Vətəni, məmləkəti hər şeydən uca tutmaq.

Bu, Azərbaycan məmləkəti uğrunda Cəlil Məmmədquluzadə mücadiləsidir. Cəlil Məmmədquluzadə Azərbaycan məmləkəti və onun müstəqilliyi uğrunda mübarizədə ədəbi-publisistik janrların çoxundan istifadə edib. Xüsusilə, felyeton janrı onun yaradıcılığında zirvəyə yüksəlib. Cəlil Məmmədquluzadə ilk dəfə felyeton janrını satirik publiistikaya gətirib. Onun publisist yaradıcılığının qayəsi Azərbaycan məmləkətinə vətəndaş məhəbbəti gətirmək olmuşdur.

Publisist rus imperiyasının müstəmləçilik, "parçala hökm sür" siyasətini tənqid edirdi. Rus məmurunun təbliğatına uyaraq müsəlmsnların bir-birinə qarşı çıxması isə şübhəsiz, Cəlil Məmmədquluzadəni narahat edirdi. Hətta belə təbliğatın cəzasız qalması müəllifi qəzəbləndirirdi: "Mən elə bilirdim ruslarda yumurta döyüşdürmək adət deyil"-yazan ədib Şamaxıda "sünnü-şiə" davası salmaq istəyən Leontiyevin cəzasızlığının əsl səbəbini açır:

"Şikayətçi müsəlmanlar məndən soruşurlar:

-...Bu kişi niyə biz ilə belə rəftar etdi? - Bunun cavabında mən dedim:

- Ondan ötrü ki, bu da biz müsəlmanları dadıb. Bəli, ... biz müsəlmanları cənab Leontyevlər və onun kompaniyaları çoxdan dadıblar" (2, c. 2, 152).

Cəlil Məmmədquluzadə çar Rusiyasının araqarışdırma siyasətinin necə baş verdiyini "Leontiyev" felyetonunda ustalıqla açıb-göstərmişdir.

Ədibin Azərbaycana məhəbbət, sevgi ideyaları təlqin edən əsərlərindən biri "Vətən məhəbbəti" adlanır. Müəllif vətənə etinasız münasibəti tənqid edir və dolayısı ilə vətəni sevmək hissi aşılayır.

Əsər bu günümüz üçün də çox aktualdır. Aktualdır ona görə ki, biz yenə də Qarabağ hadisələrinə, Şuşaya, torpaqlarımız uğrunda mübarizəyə etinasızlıq faktları ilə üzləşməli olduq. 1988-1993-ci illərin hadisələri də bizə tarixdən ibrət dərsi almağa kömək etmədi. Cəlil Məmmədquluzadə faciələrimizin hardan gəldiyini daha yaxşı göstərirdi.

Cəlil Məmmədquluzadənin ən böyük arzularından biri Azərbaycanı sivil gəmiyyət kimi görmək olmuşdur. Bunun üçün publisistikasında sivil qaydalara qovuşmağı, elmə, təhsilə yiyələnməyi, dünyəvi elmlərə qabil olmağı önə çəkmişdir. Bu sivil qaydalara uyğunlaşmaq təcrübəsinə söykənmək üçün Azərbaycan bu gün də Avropaya üz tutmaqdadır. Bu baxımdan Cəlil Məmmədquluzadənin qələmə aldığı publisistik əsərlər bu günümüz üçün də aktualdır.

Ədib "Müsəlman içində gördüklərim" əsərində "Nemsə tayfasından Reynqart adlı birisinin" səyahətindən alınan təəssüratı qələmə almışdır. Əsərdə Azərbaycanın bir sıra əyalətlərində məktəblərin olmaması, bu üzdən də insanların savadsızlığı təsvir edilir. Cəlil Məmmədquluzadə Reynqartın dili ilə Azərbaycanda bir çox adamın öz milliyyətinin kimdən ibarət olduğunu anlamayıb da özünü "müsəlman" adlandırmasına təəssüfünü bildirir. Müəllif qəsdən avropalının Gəncədə də, Rəştdə də, Bakıda da belə adamlara rast gəldiyini ürək ağrısı

ilə bildirir.

"Meşədə gördüklərim" felyetonu da bu üslübdadır. Avropalı səyyah Şamaxıda gördüklərini qələmə alıb. Avropalının dili ilə Şamaxıda şəhər əhalisinin bir-biri ilə davasından, müxtəlif pis əməllərindən söhbət açılır və burada kitabxanaya heç kimin ayaq basmadığı xüsusi vurğulanır. Avropalı Bekkerin ikinci eyni adlı məktubu Bakı barədədir və eyni məzmunludur.

Bütün bu tipli əsərlərində Cəlil Məmmədquluzadə bir vətəndaş-yazıçı, vətəndaş-publisist olaraq Azərbaycanın sabahı haqqında düşünürdü.

Cəlil Məmmədquluzadə yaradıcılıq fəaliyyəti dövründə millətə xidmət etməyi əsas vəzifəsi hesab etmişdir. Azərbaycan məmləkəti ideyası onun, demək olar ki, bütün yaradıcılığının ruhunu təşkil edir. Özünün "Üzr istəyirəm" felyetonunda hər bir vətən övladının borcunu "öz hökümətinin, məmləkətinin (kursiv mənimdir- A. M.) təmiri yolunda ona əl uzatmaqda"(6) görürdü. Cəlil Məmmədquluzadə üçün Azərbaycan məmləkəti dünyanın müqəddəs məkanıdır. Onun əsərlərində aydın görünən vətənə yanımlılıq, onun dərdlərinə dərman axtarışları sübut edir ki, böyük ədibin bu məmləkəti gözəl görməkdən savayı arzusu olmayıb. İstər öz yaradıcılığının, istərsə də "Molla Nəsrəddin"in bütün mərhələlərində Cəlil Məmmədquluzadə, xüsusilə, millətin milli özünüdərketmə prosesinin dərinləşməsinə səy göstərmişdir. Bu proses isə Azərbaycan deyilən bir məmləkətin qorunmasına, bütövləşməsinə, təkmilləşməsinə xidmət etmədir.

Cəlil Məmmədquluzadənin ideyaları əsasında mollanəsrəddinçi satirik publisistuka yaranmışdır. Mollanəsrəddinçi publisistika Azərbaycan satirik ədəbiyyatını inkişaf etdirərək ən yüksək zirvəyə çatdırmışdır. "Ədəbi növ hüququ qazanan" (7, 484) satira mövzu genişliyi, ideya yetkinliyi ilə yanaşı, janr rəngarəngliyi ilə də "Molla Nəsrəddin" ədəbi məktəbinin özünəməxsusluğunu şərtləndirirdi.

Azərbaycan satirik publisistikasının banisi Cəlil Məm-mədquluzadə satiranın ideya-bədii istiqamətlərini düzgün müəyyənləşdirmiş, jurnalistikanın bütün janrlarından bacarıqla istifadə etmişdir. Xəbər, hesabat, söhbət, korrespondensiya, müsahibə, reportaj, resenziya kimi janrlar məcmuədə satirik məzmun daşımaqla klassik formasındadır. O, jurnalistikanın janrlarının yeni satirik üslubda sistemli inkişafını təmin etmişdir. Həmçinin lüğəti, atalar sözlərini, teleqramları, səyahətnaməni ədəbi mühitdə janr səviyyəsində formalaşdırmışdır.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncamı. "Azərbaycan" qəzeti, 18 yanvar 2019-cu il, №13.
2. Məmmədquluzadə Cəlil. Əsərləri. 4 cilddə, II cild, (tərtib edəni və izahların müəllifi İsa Həbibbəyli), Bakı, Öndər, 2004, 584 səh.
3. Məmmədquluzadə. Cəlil. Əsərləri. 4 cilddə, III cild (tərtib edəni və izahların müəllifi İsa Həbibbəylidir), Bakı, "Öndər", 2004, 480 səh.







4. Məmmədquluzadə Cəlil. Əsərləri, 4 cilddə, I cild, (tərtib edəni, ön söz və izahların müəllifi İsa Həbibbəyli), Bakı, "Öndər", 2004, 664 səh.
5. Mirzə Cəlil və Məmmədquluzadələr (Məktublaşma). (Müqəddimənin müəllifi Elçin, toplayanı, tərtib edəni, sözardının və izahların müəllifi İsa Həbibbəyli), Bakı, "Çinar-Çap", 2003, 240 səh.
6. "Molla Nəsrəddin", 1927, №42.
7. Əziz Şərif. Keçmiş günlərdən, Bakı, "Yazıçı", 1986, 135 səh.


**Allahverdi Mammadli**

## Publicism of Jalil Mammadguluzade in the context of Azerbaijaniism


### Summary

*In the article, the publicism of the outstanding writer of Azerbaijan Jalil Mammadguluzadeh was involved in scientific research. The ideological and artistic directions of Jalil Mammadguluzade's publicism have been investigated. In particular, Jalil Mammadguluzadeh, the founder of Azerbaijani satirical journalism, analyzed the position of Azerbaijan as a whole, civic love for his homeland, and the desire to see it civilized in the context of Azerbaijaniism.*


***Keywords:*** *Jalil Mammadguluzade, «Molla Nasreddin», publicism, Azerbaijaniism*

**Аллахверди Мамедли**

## Публицистика Джалила Мамедгулузаде в контексте азербайджанизма


### Резюме

*В статье к научному исследованию привлечена публицистика выдающегося азербайджанского писателя Джалила Мамедгулузаде. Исследованы идейно-художественные направления публицистики Джалила Мамедгулузаде. В частности, основоположник азербай-джанской сатирической журналистики Джалил Мамедкулизаде в контексте азербайджанства проанализировал позицию Азербай-джана в целом, гражданскую любовь к своей Родине, стремление видеть ее цивилизованной.*


***Ключевые слова:*** *Джалил Мамедгулузаде, «Молла Насреддин», публицистика, азербайджанизм.*